**Azərbaycan Mərkəzi Neftçilər Xəstəxanasına ianə edilmiş tibbi avadanlıqların təqdimat mərasimi**

2025-ci il 7 may tarixində Səfir Vatanabe Katsuya Azərbaycan Mərkəzi Neftçilər Xəstəxanasına ianə edilmiş tibbi avadanlıqların təqdimat mərasimində iştirak etmişdir. Bu layihə Yaponiya hökumətinin qrant layihəsi olan İqtisadi və Sosial İnkişaf Proqramı çərçivəsində həyata keçirilmiş, layihə çərçivəsində Mərkəzi Neftçilər Xəstəxanasına angioqrafiya, daşınabilən rentgen və ultrasəs müayinə cihazları təqdim olunmuşdur. Təqdimat mərasimində İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin İdarə Heyətinin sədri Zaur Əliyev, TƏBİB-in İcraçı direktoru Vüqar Qurbanov, Mərkəzi Neftçilər Xəstəxanasının direktoru Musa Abbasov və digər əlaqəli şəxslər iştirak etmişdir.

Mərkəzi Neftçilər Xəstəxanası neft sənayesinin əsas sənaye sahəsi olduğu Azərbaycanda yüksək temperatur, yüksək təzyiq, kimyəvi maddələrə məruz qalma kimi çətin şəraitdə çalışan neftçilərin sağlamlığını qorumaq məqsədilə yaradılmış tibb müəssisəsi olub, Azərbaycanın qabaqcıl tibb müəssisələrindən biridir.

Bu layihənin icrası ilə Azərbaycan müstəqillik əldə etdikdən sonra Yaponiya ilə Azərbaycan arasında müxtəlif sahələrdə qurulmuş dostluq və sıx əməkdaşlıq münasibətlərinin daha da güclənəcəyi ümid olunur.



